# Azərbaycanın elm məbədi

## *AMEA-nın 80 illiyi və Elm gününə həsr olunmuş konfrans*





**AMEA-nın Naxçıvan Bölməsində Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illiyinə və 27 mart - Elm Gününə həsr olunmuş elmi konfrans keçirilib.**

"Azərbaycanın elm məbədi" adlı elmi konfrans AMEA-nın Naxçıvan Bölməsi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutu, Bioresurslar İnstitutu (Naxçıvan) və Batabat Astrofizika Rəsədxanasının birgə təşkilatçılığı ilə baş tutub.

Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.

AMEA-nın 80 illik fəaliyyətindən danışan bölmə sədri qeyd edib ki, bu elm məbədinin sələfi 1923-cü ildə yaranmış Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti olmuşdur. Belə ki, Azərbaycanda elmə sistemli yanaşmanın əsası məhz həmin cəmiyyət tərəfindən qoyulmuş, 1932-ci ildə SSRİ Elmlər Akademiyasının Zaqafqaziya filialının Azərbaycan şöbəsi, 1935-ci ildə həmin şöbə əsasında SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı formalaşdırılmışdır. Nəhayət, 1945-ci il martın 27-də Azərbaycan Elmlər Akademiyası təsis olunmuş, mart ayının 31-də onun strukturu formalaşdırılmışdır.

Elmin cəmiyyətin inkişafındakı önəminə diqqət çəkən natiq çıxışının davamında AMEA-nın 80 illik fəaliyyətini dövrlər üzrə yığcam təhlil edib. Vurğulanıb ki, Azərbaycan EA-nın inkişafının ən əlamətdar mərhələ Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyinin Birinci dövrünə təsadüf edir. 1983-1993-cü illərdə tənəzzül dövrünü yaşayan Azərbaycan EA Ümummilli Liderin ikinci dəfə siyasi hakimiyyətə gəlməsi ilə özünün yüksələn inkişaf yoluna qədəm qoymuşdur. 2001-ci ildə Ulu Öndərin xüsusi Sərəncamı ilə Azərbaycan Elmlər Akademiyasına "Milli" statusunun verilməsi, 2016-cı ildə "Elm haqqında Azərbaycan Respublikası Qanunu"nun qəbul olunması, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 27 mart - Elm Gününün təsis edilməsi, o cümlədən elm sahəsində aparılan islahatlar elmə və elm adamlarına göstərilən diqqətin təzahürüdür.

Bölmə sədri Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyəti dövründə əldə olunan əsas elmi nailiyyətlər və aparılan məqsədyönlü islahatlar barədə danışıb.

Çıxışının sonunda akademik konfrans iştirakçılarını AMEA-nın 80 illik yubileyi, Elm Günü, qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə təbrik edib, onlara xoş arzularını çatdırıb.

Konfrans öz işinə məruzələrin təqdimatı ilə davam edib.

Bölmənin Əlyazmalar Fondunun direktoru filologiya elmləri doktoru, dosent Fərman Xəlilov "Azərbaycan Elmlər Akademiyasının yaranmasında Tədqiq və Tətəbbö Cəmiyyətinin rolu", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev "Azərbaycan Elmlər Akademiyası inkişaf yollarında: 1945-1969-cu illər", Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev "Heydər Əliyev və Azərbaycan Milli Elmlər Akademiyası", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Tofiq Əliyev "Azərbaycan Elmlər Akademiyasının yaranmasından sonra Naxçıvanda fundamental və tətbiqi elm sahələrinin inkişafı", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Batabat Astrofizika Rəsədxanasının direktor vəzifəsini müvəqqəti icra edən Ruslan Məmmədov "Azərbaycan Elmlər Akademiyasının yaranması və astronomiya elminin inkişafı məsələləri", Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Bioresurslar İnstitutunun direktoru biologiya elmləri doktoru, dosent İsmayıl Məmmədov "Azərbaycan Milli Elmlər Akademiyası 2003-2025-ci illərdə" mövzusunda məruzə ediblər.

Elm .- 2025.- 4 aprel(№12).- S.6.